AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 AVQUST 2025-ci il BAZAR № 172 (8220) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



## Yeni geosiyasi reallıqların memarı, sabitliyin təminatçısı

*Vaşinqtonda baş tutan görüş yalnız ikitərəfli münasibətlər baxımından deyil, həm də regional və beynəlxalq əhəmiyyət daşıyan mühüm siyasi hadisə oldu. Bu görüş Azərbaycanın müasir dövlətçilik tarixinə ən şərəfli səhifələrdən biri kimi yazıldı. Bu, 44 günlük müharibədə qazanılan Zəfərin yaratdığı yeni reallıqlar fonunda Azərbaycanın beynəlxalq mövqeyinin nə qədər möhkəmləndiyini, liderliyinin isə bölgədə sülh və təhlükəsizliyin başlıca təminatına çevrildiyini bir daha təsdiqləyir.*

ABŞ-ın Cənubi Qafqaza münasibətində nəzərəçarpacaq dəyişikliklər baş verir. Regionun strateji əhəmiyyəti, enerji təhlükəsizliyi və nəqliyyat bağlantılarının qlobal güclərin diqqət mərkəzində qalması Tramp administrasiyasının prioritetlərindəndir. Bu baxımdan, Prezident Tramp Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və dayanıqlı sülhə nail olunması istiqamətində təşəbbüsləri tarixə yazılır. Ağ Evdə keçirilən üçtərəfli görüşdə Prezident Trampın ölkəmizin başçısı İlham Əliyevlə müzakirələr aparması Azərbaycanın regional lider statusunu və Vaşinqtonla strateji tərəfdaşlığının yüksək səviyyəsini bir daha sübut etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illər hərbi-siyasi, iqtisadi, həm də diplomatik sahədə mühüm uğurlar əldə edib. 2023-cü ildə aparılan antiterror tədbirləri nəticəsində ölkənin suverenliyinin bərpa olunması diplomatik iradənin təntənəsidir. Cənab İlham Əliyev bu tarixi nailiyyətin ardınca Azərbaycanın yeni strateji mərhələyə qədəm qoymasını da təmin etdi: reallıqlar dəyişdi, oyun qaydaları yeniləndi və Bakı bu yeni qaydaların əsas müəlliflərindən oldu. Prezident İlham Əliyev ötən il fevralın 24-də andiçmə mərasimi zamanı deyib: "Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun". Təsadüfi deyil ki, 2003-cü ildən bu günə qədər istər iqtisadi, hərbi-siyasi, istərsə də diplomatik müstəvidə qəbul olunan bütün qərarlar nəticəyönümlü və məqsədli xarakter daşıyıb. Qarabağ Zəfərindən sonrakı dövrdə regionda yaranan yeni reallıqlar da məhz bu düşünülmüş addımların məntiqi nəticəsidir.

Avqustun 8-də Vaşinqtonda baş tutan üçtərəfli görüş Azərbaycanın diplomatik meydanda qazandığı yeni və mühüm qələbə oldu. Cənubi Qafqaz regionu uzun illər geosiyasi qeyri-sabitlik, silahlı münaqişələr və diplomatik qarşıdurmaların məkanı olub. Lakin 2020-ci ildə Azərbaycanın qazandığı tarixi Zəfərlə başlamış yeni geostrateji mərhələ regionun gələcəyinə fərqli baxışlar gətirdi. Bu gün Cənubi Qafqaz artıq sabitliyin və əməkdaşlığın mümkün olduğu platformaya çevrilməkdədir. Bu transformasiyanın əsas memarı isə Prezident İlham Əliyevin qətiyyətli, ardıcıl və milli maraqlara söykənən siyasətidir. Vaşinqtonda imzalanan Birgə Bəyannamə bu baxımdan regional sabitlik və sülh gündəminin institusional əsaslarının qurulması yolunda atılmış strateji addımdır. Bəyannamənin hüquqi-siyasi mahiyyəti sülh müqaviləsinin arxitekturasını formalaşdıran baza prinsiplərinin razılaşdırılması və paraflanması ilə bağlı mərhələnin başa çatdığını göstərir. Bu sənəd artıq prosesin geri dönüşsüz bir mərhələyə qədəm qoyduğunu və tərəflərin sülh gündəminə sadiqliyini rəsmi şəkildə təsdiqləyir. Vaşinqton Bəyannaməsində öz əksini tapan əsas komponentlərdən biri də Zəngəzur dəhlizinə dair razılıqdır. Dəhliz Azərbaycanın suveren hüquqlarını təmin etməklə yanaşı, regiondaxili inteqrasiyanın və kommunikasiya təhlükəsizliyinin təməl daşlarından biri kimi çıxış edir. Ölkə başçısı İlham Əliyev bu mövzunu beynəlxalq gündəmdə strateji prioritet kimi irəli sürür, Zəngəzur dəhlizini təkcə Naxçıvanla quru əlaqəsinin bərpası deyil, eyni zamanda Avrasiya məkanında yeni nəqliyyat marşrutlarının açılması və Şərq-Qərb tranzit dəhlizlərinin tam funksional hala gətirilməsi baxımından qiymətləndirir. Vaşinqtonda əldə olunan razılaşma bu baxımdan çoxvektorlu xarakter daşıyır. Bir tərəfdən bu, Azərbaycanın suveren hüquqlarının beynəlxalq səviyyədə qəbul edilməsinin göstəricisidir, digər tərəfdən isə regionda uzunmüddətli iqtisadi inteqrasiyanı və etimad quruculuğunu təşviq edir. Maneəsiz keçidin təmin olunması isə Ermənistanın yeni geosiyasi reallıqlarla barışmasının hüquqi ifadəsidir.

Uzun müddətdir ATƏT-in Minsk qrupunun siyasi legitimliyi və əməli effektivliyi tamamilə sual altına düşüb. Qurumun fəaliyyətsizliyi və passiv vasitəçilik rolu artıq qəbul olunmur. Azərbaycan Prezidenti beynəlxalq platformalarda dəfələrlə bəyan edib ki, yeni reallıqlar yeni mexanizmləri zəruri edir. Vaşinqton görüşünün önəmli nəticələrindən biri də məhz bu beynəlxalq platformanın formal şəkildə ləğvini gündəmə gətirən birgə məktubun ünvanlanmasıdır. Bu, beynəlxalq münasibətlər sistemində postsovet dövrünün mirası olan qeyri-funksional qurumların yeni dövrün reallıqları qarşısında sıradan çıxarılmasının əyani sübutudur. Həmçinin sülh gündəminin reallaşmasında əsas əngəllərdən biri Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarıdır. Lakin Vaşinqtonda əldə edilən konsensusun davamı olaraq 2026-cı ildə bu maddələrin konstitusion şəkildə ləğv olunması üçün referendumun keçiriləcəyi təsdiqləndi.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlərdə əsas hadisələrdən biri olan avqustun 7-də SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanması Azərbaycan-ABŞ münasibətlərində iqtisadi təməllərin gücləndirilməsi və strateji tərəfdaşlığın praktik fazaya keçidinin bariz göstəricisidir. Müqavilənin mahiyyəti Azərbaycanın sənaye infrastrukturunun modernizasiyası, ekoloji təhlükəsizlik standartlarının yüksəldilməsi və yerli kadrların beynəlxalq təcrübəyə inteqrasiyası üçün yeni imkanlar açır. Əməkdaşlıq çərçivəsində reallaşdırılacaq birgə layihələr ölkədə texnoloji inkişafın sürətlənməsinə, innovasiya bazarının genişlənməsinə və ən əsası, yeni iş yerlərinin açılmasına şərait yaradacaq. Bu isə təkcə enerji sektorunu deyil, paralel olaraq xidmət, nəqliyyat və infrastruktur sahələrini də stimullaşdıracaq.

ABŞ uzun illərdir Azərbaycanla enerji sahəsində əməkdaşlıq edən mühüm aktorlardan biridir. "Əsrin müqaviləsi"ndən Trans-Xəzər layihələrinə qədər bir çox təşəbbüslərdə Vaşinqton rəsmi Bakının enerji strategiyasını dəstəkləmişdir. Bu yeni mərhələ enerji istehsalında texnoloji transformasiya, "yaşıl enerji"yə keçid, emal sənayesində yüksək dəyər zəncirləri və regional inteqrasiya perspektivlərini gündəmə gətirir. "ExxonMobil" kimi transmilli korporasiyanın Azərbaycanda genişmiqyaslı fəaliyyətə başlaması beynəlxalq investorlar üçün də etibarlılıq göstəricisidir. Ölkə başçısı Vaşinqtonda Azərbaycan mediasına müsahibəsində də səfərin olduqca uğurlu keçdiyini bildirdi: "Prezident Trampla görüşümüz çox səmimi şəkildə keçdi. Deyə bilərəm ki, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda, bildiyiniz kimi, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir". Mövcud razılaşma Azərbaycanın beynəlxalq əmək bölgüsündə rolunun güclənməsinə və ölkəmizin qlobal enerji habı vizyonunun reallaşmasına xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar və xarici sərmayələrə yaradılmış əlverişli mühit strateji əməkdaşlıqlara münbit zəmin yaradır. Eyni zamanda, bu razılaşma ABŞ üçün də əhəmiyyətlidir. Belə ki, enerji bazarlarında geosiyasi risklərin artdığı bir vaxtda Amerikanın böyük enerji şirkətinin sabit və strateji əhəmiyyətli Azərbaycan bazarına daxil olması Vaşinqton üçün həm iqtisadi, həm də geosiyasi mənfəətlər vəd edir.



Dünya liderləri tərəfindən Prezident İlham Əliyevə ünvanlanan təbriklər Azərbaycanın bu mürəkkəb prosesdə oynadığı əsaslı rola verilən siyasi dəyərdir. Qərb ölkələrindən, Şərq və MDB məkanındakı tərəfdaş dövlətlərə qədər çoxsaylı liderlər sülh gündəliyinin müəllifliyini və təşəbbüskarlığını məhz Bakıya aid olduğunu, bu istiqamətdə həyata keçirilən qətiyyətli və prinsipial siyasətin yüksək qiymətləndirildiyini bildiriblər. Təbrik məktublarında qeyd edilir ki, Cənubi Qafqazda uzunmüddətli və davamlı sülhün reallaşması siyasi iradə və strateji baxış tələb edir. Prezident İlham Əliyev isə bu keyfiyyətləri özündə ehtiva edən liderdir. Dünya liderləri Prezident İlham Əliyevi sülh müqaviləsinin müəllifi olaraq gördüklərini bəyan edirlər.

Bütün bu uğurlar regional maraqları beynəlxalq trendlərlə sintez edən və ölkənin iqtisadi müstəqilliyini möhkəmləndirən rasional, məqsədyönlü yanaşmaya əsaslanır. Ölkə başçısının siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan təkcə sabitlik adası deyil, həm də regional inteqrasiyanın əsas təşəbbüskarı və təminatçısı kimi çıxış edir. Vaşinqton Bəyannaməsi ilə başlayan yeni mərhələ sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyi təqdirdə Cənubi Qafqaz regionu üçün yeni geosiyasi sabitlik arxitekturasının formalaşmasına yol açılacaq. Bu arxitekturanın əsas dayaqları isə Azərbaycanın güclü dövlətçilik iradəsi, liderlik qabiliyyəti və beynəlxalq hüquqa əsaslanan mövqeyidir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**